# Azərbaycan və yaşıl dünya naminə ədalətli siyasət

## *Prezident İlham Əliyevin mesajları qlobal risklərdən etibarlı sığortadır*



**Məlum olduğu kimi, aprelin 4-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib. Bu formatın artıq ənənəyə çevrildiyini qeyd edə bilərik. Söhbət ölkəmizin dünyanın enerji təhlükəsizliyindəki yerini və rolunu vurğulayan, kifayət qədər, praktik çalarlarla zəngin ənənədən gedir.**

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin həmin tədbirdəki çıxışı ölkəmizin müzakirə olunan mühüm mövzular üzrə öncüllüyünün təsdiqi baxımından xüsusi əhəmiyyət daşıdı. Dövlətimizin başçısı geniş məzmunlu çıxışında, ümumən, enerji məsələləri ilə bağlı beynəlxalq gündəmin vacib prioritetlərinə toxundu, mövcud istiqamətdə Azərbaycanın daşıdığı missiyanı təfsilatı ilə açıqladı, habelə ölkəmizin prioritetlərini sadaladı.

Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz nəhəng hasilat və nəqletmə layihələrinin icrasını mümkün etmiş korporativ maliyyələşmə, o cümlədən borca götürülmüş pul vəsaitlərinin kombinasiyasında böyük təcrübəyə malikdir. Deməli, Azərbaycan dünya üçün müstəsna önəmə malik layihələri təkcə icra etmir, habelə həmin layihələrin davamlılığı və risklərdən etibarlı müdafiəsini də qurur, bununla bağlı immunitet formalaşdırmağı bacarır.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan və yaşıl dünya naminə ədalətli siyasət




**(əvvəli 1-ci səhifədə)**

Bəli, dövlətimizin başçısı fikirləri ilə eyni zamanda, beynəlxalq miqyasda Azərbaycanın etibarlı tərəfdaş mövqeyini canlandırır. Yeri gəlmişkən, bu mövqe, demək olar ki, hər il möhkəmləndirilməkdədir. Belə bir statusun əldə olunması isə fəaliyyət səmərəliliyinin, praqmatizmin, rasional düşüncənin nəticəsidir. Bu yanaşma enerjinin şaxələndirilməsi ilə yanaşı, yeni təchizat coğrafiyasının yaradılmasına təkan verir. Hazırda Azərbaycan – Avropa İttifaqı əməkdaşlığının gücləndirilməsində də bunun müstəsna rolu var. Ona görə birmənalı şəkildə deyə bilərik ki, ölkəmizin etibarlı tərəfdaş mövqeyindəki səmərəlilik yalnız statik göstərici deyil, böyük fayda amilinə hesablanmış ardıcıl xarakter daşıyan kompleks fəaliyyətin məhsuludur.

Lakin dünya sürətlə dəyişir. Ənənəvi enerjidən yaşıl enerjiyə keçid dövründə yaşayırıq. Bu dövr yeni çətinliklər doğurur. Bəzən görürük ki, obyektiv durumun şərtləri ayrı-ayrı siyasi məqsədlərin gerçəkləşdirilməsi naminə, bir növ, ifrata varmaq üçün bəhanəyə çevrilir. Belə mənfi tendensiyanın mövcudluğunu ən səlist duyan isə Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı haqqında söz açdığımız nüfuzlu toplantıdakı çıxışında bildirir ki, AÇG (Azəri Çıraq Günəşli), "Şahdəniz" və "Abşeron" bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır və yaxın gələcəkdə ölkəmizdə digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. "Beləliklə, müqavilələr artıq imzalanıb, işçi proqram təsdiqlənib. Boru kəmərlərinin çəkilməsi, Bakı–Tbilisi–Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənub Qaz Dəhlizi – bütün bu işlər qeyd etdiyim kimi, bütün iştirakçılarla əməkdaşlıq sayəsində görülmüşdür", - deyən Prezident İlham Əliyev, faktiki olaraq, indiyədək keçilmiş yolun, görülən işlərin haqqında söz açdığımız tendensiyanın, yəni ənənəvi enerjidən yaşıl enerjiyə keçidin mənfi təsirlərinə məruz qalmamasının vacibliyini önə çəkir. Diqqət yetirək, Azərbaycan Prezidenti "faydalı qazıntı layihələrinin maliyyələşdirilməsinin dayandırılması siyasəti başlananda, bu, investorlara, şirkətlərə, ölkələrə müsbət olmayan siqnal göndərir"– deyərək son dərəcə mühüm məsələyə toxunur və risk amilini qabardır. Bu amilin isə iki cəhəti var.

Ənənəvi enerjidən yaşıl enerjiyə keçidin şərtlərinin ayrı-ayrı siyasi məqsədlərin gerçəkləşməsi naminə ifrata varmaq üçün bəhanəyə çevrildiyini əbəs yerə vurğulamadıq. Fikrimizə aydınlıq gətirək. Məsələn, Azərbaycanla Avropa İttifaqı enerji sayəsində mühüm əməkdaşlığa malikdir. Ölkəmizin "köhnə qitə"nin enerji təhlükəsizliyində mühüm rol oynadığı da danılmazdır. Ancaq elə həmin Aİ-nin ermənipərəst mövqeyi ilə seçilən bəzi ölkə və dairələrində Azərbaycanla əməkdaşlığa xitam verilməsinə, bizə sanksiya tətbiqinə dair çağırışlar səsləndirilməkdədir. Hazırda belə sərsəmləmələrə "it hürər, karvan keçər" atalar sözü prizmasından yanaşırıq. Ancaq...

Əlbəttə, Azərbaycan dövləti xaricdəki hansısa ermənipərəstin sərsəm düşüncəsinə ciddi risk faktoru olaraq yanaşmır. Çünki dövlətimiz dəyişən dünyanın ahənginə uyğun davranır. Tədbirlərimiz gələcəyimiz üçün müstəsna təminatdır. Ümumi səciyyə daşıyan risk isə onunla izahını tapır ki, ənənəvi enerjidən yaşıl enerjiyə keçid şəraiti investisiya mühitinə siyasi yanaşmalı təsir üçün münbit zəmin yaratmaq potensialındadır. Axı geridə qalan atların güllələndiyi dövrdə yaşayırıq. Zaman çox amansızdır, bu, öz yerində.

Hesab edirik ki, ənənəvi enerjidən yaşıl enerjiyə keçiddəki ikinci risk faktoru daha önəmlidir. Məsələ ondadır ki, iri investorlar dünyanın yaşam gündəliyində xüsusi rola malikdirlər. Onların illər ərzində topladığı bəlli təcrübə, fəaliyyət qabiliyyəti var. Belə qabiliyyət sahiblərinin əməyindən kütləvi imtina tendensiyası meydanı boş qoyacaq.

Yəni, ənənəvi enerjidən yaşıl enerjiyə sürətli keçiddə hazırkı investorların funksionallıqlarını tamamilə itirmələri, müflisləşmələri mümkündür. Yeni şərait üçün lazımi sərmayədar çevrəsi formalaşmayıbsa, təhlükəli vəziyyətin yaranma ehtimalı böyükdür. Məhz buna görə Prezident İlham Əliyev vurğulayır: "Ümid edirik ki, Avropada çox geniş yaşıl gündəliyə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq".

Göründüyü kimi, ölkəmizin lideri beynəlxalq ictimaiyyətin diqqətini son dərəcə vacib məsələyə çəkir və bu, ilk növbədə dünyanın, o cümlədən Avropanın biznes mühitinin qorunmasına müstəsna töhfədir. Əlbəttə, Azərbaycan dövlətinin yanaşması heç də o demək deyil ki, indiki enerji mühafizəkarlığı tam şəkildə saxlanılmalıdır. Nəhayət, obyektiv şərtlər, dəyişən reallıqlar var. Bəs mövcud durumda nə edilməlidir?

Deməli, vəziyyətə uyğunlaşmaq şərtdir. Azərbaycan da obyektiv və labüd prosesə adekvat davranmanın tərəfdarıdır. Ona görə Prezident İlham Əliyev çıxışında ölkəmizin COP29-dakı mesajını xatırladır: "Əslində, bu, bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır. Əksinə, faydalı qazıntıları zəngin olan və bərpaolunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil".

Beləliklə, Azərbaycan ənənəvi enerjidən yaşıl enerjiyə keçidin risksiz, müvafiq olaraq, həm də ağrısız formulunu təklif edir. Bu, bir tərəfdən, dünyanın hazırkı investisiya mühitinin, yəni, həm də əməkdaşlığın qorunması baxımından vacibdir, digər yandan, təklifimizin dünyaya ədalət çağırışı motivi var. Biznes və əməkdaşlıq mühitinin heç də asan başa gəlmədiyini, habelə yeni dövrün investisiya imkanlarının hələ oturuşmadığını nəzərə alsaq, bir formatdan digərinə keçidin inqilabi yox, təkamül yolu mütləqdir.

Məhz təkamül yolu ənənəvi investorların, başqa sözlə desək, faydalı qazıntılarla zəngin ölkələrin məhsullarını bazarlara çıxaranların işlərini yeni dövrə uyğun qurmaları üçün imkan tanıyacaq, onlara vaxt qazandıracaq. Belə olduqda "yaşıl biznes" də struktur üstünlüyünə yiyələnəcək. Böyük anlamda isə diqqətə çatdırdığımız formul hazırkı beynəlxalq əməkdaşlıq platformalarındakı qarşılıqlı inam və etibar parametrlərini saxlayacaq.

Ən əsası, qazanılmış vaxt imkan verəcək ki, faydalı qazıntılarla zəngin ölkələr əldə etdikləri ənənəvi qazanclarla öz iqtisadiyyatlarını "yaşıllaşdırsınlar", bərpaolunan enerjiyə sərmayə yatırsınlar. Prezident İlham Əliyevin yanaşmasındakı ədalət göstəricisi isə faydalı qazıntılarla zəngin ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkiliyin aradan qalxmasıdır. Qeyd edək ki, ölkəmiz "COVID-19" pandemiyasının tüğyan etdiyi dönəmdə də eyni məramı təbliğ edir, virus əleyhinə peyvəndlərin bölgüsündə paritetlik təşəbbüsünü qaldırırdı.

Sonda onu da bildirək ki, yalnız sözdə deyil, əməldə də liderliyimiz özünü göstərir. Pandemiyadan əziyyət çəkən ölkələrə yardımlar etdiyimiz danılmaz faktdır. Dünyada xeyriyyəçi ölkə kimi tanınan Azərbaycan eyni münasibətin yaşıl dünya quruculuğunu da əhatə etməsinin tərəfdarıdır. Prezident İlham Əliyevin mötəbər toplantıda bu məqamı vurğulaması da ölkəmizin prinsiplərinə sadiqliyinin növbəti göstəricidir.

***Ə.RÜSTƏMOV***
***XQ***